# HACIQABUL

№ 18-19 (652-653)

29 avqust 2016-cı il

Hacıqabul rayon İcra Hakimiyyətinin qəzeti




# Müstəqil dövlət olmaq müstəqil siyasət yürütmək deməkdir

## *Bu mənada Azərbaycan dünya siyasi arenasında layiqli yerini tutub*

Müstəqil Azərbaycan Heydər Əliyevin dövlətçilik və siyasi idarəçilik konsepsiyasına istinad edərək yeni uğurlara doğru inamla irəliləyir. Prezident İlham Əliyev mütərəqqi inkişaf strategiyasını davam etdirməklə yanaşı, onu yeni dövrün tələblərinə uyğun zənginləşdirmiş, sosial-iqtisadi islahatlarla demokratikləşmə proseslərinin paralel şəkildə aparılmasına, birinin digərini tamamlamasına çalışmışdır. Dövlət müstəqilliyinin ilk illərində yaşadığımız böyük problemlər indi yaddaşımızın acı xatirəsinə çevrilib.

## 2016-cı il sentyabr ayı üçün Hacıqabul rayon İcra Hakimiyyəti Başçısı Aparatında vətəndaşların qəbul günləri

| Sıra №-si | Vəzifəsi | Həftənin günləri | Qəbul saatı |
|---|---|---|---|
| 1 | İcra Hakimiyyətinin Başçısı | I | 15:00 |
| 2 | İcra Hakimiyyəti Başçısının birinci müavini | II | 14:00 |
| 3 | Başçının müavini-İctimai, siyasi və humanitar məsələlər şöbəsinin müdiri | III | 14:00 |
| 4 | Başçının müavini-Sosial-iqtisadi inkişafın təhlili və proqnozlaşdırılması şöbəsinin müdiri | IV | 14:00 |
| 5 | Ərazi idarəetmə və yerli özünüidarəetmə orqanı ilə iş şöbəsinin müdiri | V | 14:00 |
| 6 | Memarlıq və tikinti şöbəsinin müdiri | VI | 10:00 |

**Qeyd: Vətəndaşların qəbulu ilə bağlı əlaqə telefonları:** (02120) 4-41-91, (02120) 4-41-58

## *26 sentyabr ümumxalq səsverməsi (referendum) günüdür*

# Əsas niyyət milli dövlət maraqlarının qorunmasıdır

Bu gün hamımız mənəvi rahatlıq keçirə bilərik. Çünki tarixi bir iş görülmüşdür, tarixi bir sənəd yaradılmışdır. Bu gün biz Azərbaycanın bu günü, gələcəyi üçün bir sənəd-siyasi, hüquqi bir sənəd yaratmışıq. Bizim Konstitusiya layihəsinin ən mühüm əhəmiyyəti ondan ibarətdir ki, xalqımızın, respublikamızın tarixində bu, ilk, tamamilə sərbəst, müstəqil şəkildə yaranmış Konstitusiyadır.Konstitusiya layihəsi indiyə qədər olan bütün konstitusiyaların, qanunların hamısından fərqlənir. Ona görə ki, bu müstəqil Azərbaycanın Konstitusiyasıdır.

*(Davamı 3-cü səhifədə)*

## «Sərbəst toplaşmaq azadlığı haqqında» Azərbaycan Respublikasının Qanununa uyğun olaraq 2016-cı il sentyabrın 26-na təyin edilmiş ümumxalq səsverməsində (referendumda) referendumqabağı təşviqatın aparılması üçün müvafiq yerlərin ayrılması barədə

# Hacıqabul rayon İcra Hakimiyyəti Başçısının Sərəncamı

2016-cı il sentyabrın 26-na təyin edilmiş Azərbaycan Respublikasının Konstitusiyasında dəyişikliklər edilməsi məqsədi ilə ümumxalq səsverməsində (referendumda) qeydə alınmış referendum üzrə təşviqat qruplarının səlahiyyətli nümayəndələrinin, onların vəkil edilmiş şəxslərinin seçicilərlə görüşlərinin keçirilməsi, habelə referendumqabağı təşviqat materiallarının lövhələrdə yerləşdirilməsi, təşviqat aparılması üçün müvafiq yerlərin ayrılması və referendumqabağı tədbirlərin keçirilməsində təhlükəsizliyin və ictimai asayişin təmin edilməsi ilə əlaqədar "Sərbəst toplaşmaq azadlığı haqqında" Azərbaycan Respublikasının Qanununa və Azərbaycan Respublikasının Seçki Məcəlləsinin 11, 74, 75.2, 86.1, 86.3, 86.7 və 87.6-cı maddələrinə uyğun olaraq

**Q Ə R A R A   A L I R A M:**

1. Qeydə alınmış referendum üzrə təşviqat qruplarının səlahiyyətli nümayəndələrinin, onların vəkil edilmiş şəxslərinin seçicilərlə görüşlərinin keçirilməsi, referendumqabağı təşviqat materiallarının lövhələrdə yerləşdirilməsi üçün 58 saylı Hacıqabul - Kürdəmir seçki dairəsinin əhatə etdiyi seçki (referendum) məntəqələrinin ərazisində aşağıda qeyd edilən qapalı və açıq yerlər ayrılsın.

| Sıra sayı | Şəhər, qəsəbə və kəndlər seçki məntəqələri | Tədbirlərlərin keçirilməsi və təşviqat aparmaq üçün müəyyən edilmiş yerlərin Dislokasiyası |
|---|---|---|
| 1 | Hacıqabul şəhəri üzrə 1-11 saylı məntəqələr | H.Həmidov küçəsində yerləşən Mərasim evi. Suvarma Sistemləri İdarəsinin cənub hissəsindəki boş sahə. |
| 2 | Muğan qəsəbəsi 12-13 saylı məntəqələr | Bələdiyyəyə məxsus otaq. Poçtamtın binasının ön hissəsi. Qəsəbə idman meydançası. |
| 3 | Qarasu kəndi 14-15 saylı məntəqələr | Kənd klubunun binası Bələdiyyə binasının önündəki boş sahə. |
| 4 | Padar qəsəbəsi 16 saylı məntəqə | Qəsəbə kitabxanası. Qəsəbə Poçtamtın önündəki boş sahə. |
| 5 | Abdulabad kəndi 17-18 saylı məntəqələr | Kənd kitabxanası. Kənd idman meydançası. Bələdiyyə binasının önündəki boş sahə. |
| 6 | Kolanı kəndi 19 saylı məntəqə | Kənd mədəniyyət evi. Mədəniyyət evinin önündəki boş sahə. |
| 7 | Talış kəndi 20 saylı məntəqə | Bələdiyyəyə məxsus otaq. Talış kənd Poliklinasının önündəki boş sahə. |
| 8 | I Meyniman kəndi 21 saylı məntəqə | Kənd mədəniyyət evi. Ticarət obyektinin ərazisindəki boş sahə. |
| 9 | II Meyniman kəndi 22 saylı məntəqə | Kənd kitabxanası. Kənd klubunun önündəki boş sahə. |
| 10 | Axtaçı – Şirvan kəndi 23 saylı məntəqə | Kənd kitabxanası. Ticarət obyektinin önündəki boş sahə. |
| 11 | Ağacanlı kəndi 24 saylı məntəqə | Kənd kitabxanası. Tibb məntəqəsinin önündəki boş sahə. |
| 12 | Əlètli kəndi 25 saylı məntəqə | Kənd kitabxanası. Bələdiyyə binasının önündəki boş sahə. |
| 13 | Navahı kəndi 26-27 saylı məntəqələr | Kənd mədəniyyət evi. Kənd mədəniyyət evinin önündəki boş sahə. İdman meydançası. |
| 14 | Pirsaat qəsəbəsi 28 saylı məntəqə | Qəsəbə kitabxanası. Ticarət obyektinin önündəki boş sahə. |
| 15 | Navahı qəsəbəsi 29 saylı məntəqə | Qəsəbə kitabxanası. Bələdiyyə binasının önündəki boş sahə. |
| 16 | Rəncbər kəndi 30-31 saylı məntəqələr | Kənd mədəniyyət evi. Mədəniyyət evinin ön hissəsi. Ticarət mərkəzinin önündəki boş sahə. |
| 17 | Qubalıbalaoğlan kəndi 32-33 saylı məntəqələr | Kənd klubu. Poçtamtın binasının önündəki boş sahə. |
| 18 | Qızılburun kəndi 34 saylı məntəqə | Kənd kitabxanası. Ticarət mərkəzinin önündəki boş sahə |
| 19 | Atbulaq və Kürçülü kəndləri 35-36 saylı məntəqələr | Kənd mədəniyyət evi. Bələdiyyə binasının önündəki boş sahə. |
| 20 | Şorbaçı kəndi 37 saylı məntəqə | Kənd kitabxanası. Ticarət mərkəzinin önündəki boş sahə. |
| 21 | I Udulu kəndi 38 saylı məntəqə | Kənd mədəniyyət evi. Bələdiyyə binasının önündəki boş sahə. |
| 22 | II Udulu kəndi 39 saylı məntəqə | Kənd klubunun binası. Kənd klubunun önündəki boş sahə. Bələdiyyə binasının ön hissə. |
| 23 | Tağılı kəndi 40 saylı məntəqə | Kənd klubunun binası. Ticarət obyektinin ön hissəsi. |
| 24 | Qubalı kəndi 41 saylı məntəqə | Kənd kitabxanası. Tibb məntəqəsinin önündəki boş sahə. |

2. Seçki dairəsinin əhatə etdiyi 1-41 saylı seçki (referendum) məntəqələrinin ərazisində referendumqabağı Təşviqat lövhələri yerləşdirilsin.

3. Referendumqabağı kütləvi tədbirlərin keçirilməsində təhlükəsizliyin və ictimai asayişin təmin edilməsi rayon Polis şöbəsinə həvalə edilsin.

4. Sərəncam «Hacıqabul» qəzetində dərc olunsun.

***Əhməd Muxtarov,***
***Hacıqabul rayon İcra Hakimiyyətinin Başçısı***

*26 avqust 2016-cı il*

# Xüsusi Dövlət Mühafizə Xidməti böyük və şərəfli yol keçib

## *Avqustun 23-də Xüsusi Dövlət Mühafizə Xidməti əməkdaşları peşə bayramlarını qeyd etdilər*



Peşə bayramı münasibəti ilə Xüsusi Dövlət Mühafizə Xidməti Hacıqabul regional şöbəsinin əməkdaşları ümummilli lider, müasir müstəqil Azərbaycanın memarı və qurucusu Heydər Əliyevin xatirəsini yad edərək abidəsi önünə tər gül dəstələri düzdülər.Sonra rayon Heydər Əliyev Mərkəzində tədbir keçirildi.

Peşə bayramı münasibəti ilə keçirilən tədbirdə çıxış edən Xüsusi Dövlət Mühafizə Xidmətinin Hacıqabul regional şöbəsinin rəisi Arif Mirzəyev şəxsi heyəti təbrik etdi, onlara fəaliyyətlərində uğurlar arzuladı.

Ulu öndər Heydər Əliyevin fərmanı ilə 1993-cü ildə yaradılan, əsas vəzifəsi Azərbaycan Prezidentinin, digər dövlət mühafizəsi obyektlərinin, həmçinin respublikamızda səfərdə olan xarici ölkələrin dövlət və hökumət başçılarının təhlükəsizliyinin təmin edilməsi olan Xüsusi Dövlət Mühafizə Xidməti ötən 23 ildə böyük və şərəfli yol keçib. Prezident İlham Əliyev 2008-ci il avqustun 23-nü Xüsusi Dövlət Mühafizə Xidməti əməkdaşlarının peşə bayramı günü kimi təsis edilməsi haqqında sərəncam imzalayıb. Ölkə Prezidenti Xüsusi Dövlət Mühafizə Xidmətinin fəaliyyətinin təkmilləşdirilməsini daim diqqət mərkəzində saxlayır.

Tədbirdə Xüsusi Dövlət Mühafizə Xidmətinin Hacıqabul rayon şöbəsinin bir neçə əməkdaşına rayon İcra Hakimiyyətinin Fəxri fərmanı təqdim olundu.

***"Hacıqabul"***

# Vergi inzibatçılığının həyata keçirilməsində yeni mərhələ

Cari ilin avqustun 4-də Azərbaycan Respublikası Prezidenti "2016-cı ildə vergi sahəsində aparılacaq islahatların istiqamətləri"nin təsdiqi və vergi inzibatçılığının təkmilləşdirilməsi haqqında" Sərəncam imzalamışdır. Bu Sərəncam vergi sisteminin inkişafında, xüsusilə də vergi inzibatçılığının həyata keçirilməsində yeni bir mərhələ açır.

Sərəncamda vergi inzibatçılığı sahəsində əhəmiyyətli tədbirlərin həyata keçirilməsi nəzərdə tutulur. Bu tədbirlərə və vergitutma bazasının genişləndirilməsi, vergi yoxlamalarının təyin edilməsi, keçirilməsi və nəticələrinin rəsmiləşdirilməsi prosesi üzrə vergi inzibatçılığının təkmilləşdirilməsi, nümunəvi vergi ödəyicilərinin müəyyən edilməsi, vergi yoxlamalarının qanunla müəyyən edilmiş tələblərə əməl olunmaqla qısa müddətdə başa çatdırılması, elektron auditin tətbiqi dairəsinin genişləndirilməsi, vergi ödəyicilərinə göstərilən xidmətlərin keyfiyyətinin artırılması, risk qiymətləndirilməsi sisteminin yaradılması, vergi bəyannamələrinin formalarının təkmilləşdirilməsi istiqamətində vergi islahatlarının davam etdirilməsi və s. aiddir.

İslahatların mühüm bir hissəsi biznes mühitinin daha da yaxşılaşdırılması, vergi qanunvericiliyinin sahibkarlığın aparılması üçün daha əlverişli şərtlərin yaradılması və sahibkarların hüquqlarının genişləndirilməsi ilə bağlı müddəalarini əhatə edir.

Qarşıdakı dövrdə ölkə başçısının qeyd olunan tapşırığına uyğun olaraq istehsal fəaliyyəti ilə məşğul olan kiçik və orta sahibkarlar üçün mənfəət (gəlir) və əlavə dəyər vergisinin dərəcələrinin aşağı salınması ilə bağlı qanunvericilikdə dəyişikliklərin edilməsi, bu sahədə vergi inzibatçılığının sadələşdirilməsi nəzərdə tutulur.

Ölkədə aparılan sosial siyasətə uyğun olaraq, bir sıra istehlak mallarının qiymətlərinin ƏDV-nin differensiallaşdırılması yolu ilə tənzimlənməsi nəzərdə tutulur. Beynəlxalq təcrübədə belə mallara uşaq qidaları, məktəbli ləvazimatları, dərman vasitələri, əlillər üçün tibbi məhsullar və avadanlıqlar, kitablar və bir sıra xidmət növləri daxildir. Bununla bağlı Vergi Məcəlləsinə müvafiq dəyişikliklər layihəsi hazırlanacaq.

Uzun müddət müzakirə mövzusu olan kənd təsərrüfatı məhsullarının ticarət şəbəkələri tərəfindən pərakəndə qaydada satılarkən bu məhsulların tam dəyərinin ümumi qaydada ƏDV-yə cəlb edilməsi ilə bağlı məsələ də artıq öz həllini tapacaq. Belə ki, ƏDV-nin ticarət əlavəsindən hesablanması ilə bağlı müddəalar müvafiq qanunvericl dəyişikliklərdə nəzərə alınacaq. Bu addım kiçik və orta sahibkarlığı stimullaşdırmaqla yanaşı, pərakəndə ticarətdə rəqabət mühitini təmin edəcək. Sərəncamın icrası ilə nümunəvi və intizamsız vergi ödəyiciləri müəyyən ediləcək, onların adları ictimaiyyətə açıqlanacaq. Nümunəvi vergi ödəyicilərinə münasibətdə vergi inzibatçılığı sadələşdiriləcək və onlara ünvanlı xidmətlər göstəriləcək.

Vergi ödəyicilərinə xidmətlərin spektri genişləndiriləcək və bir sıra yeni elektron xidmətlərin tətbiqi həyata keçiriləcək.

Sərəncamda müəyyən edilmiş islahatların digər bir hissəsi vergitutma bazasının genişləndirilməsi və vergi nəzarətinin səmərəliliyinin artırılması ilə bağlıdır.

Vergi orqanları tərəfindən aparılan araşdırmalar göstərir ki, iqtisadiyyatın ayrı-ayrı sahələrində vergidən yayınma hallarının miqyası kifayət qədər böyükdür. Bu özünü vergi öhdəliyi yaranan vergi ödəyicilərinin vergi orqanlarında qeydiyyatdan keçməməsində, uçot-məlumat bazasının düzgün aparılmaması və yaranmış vergi öhdəliklərinin düzgün göstərilməməsində, qiymətələgəlməsi prosesində vergi minimallaşdırılması metodlarının tətbiqində, vergi yükü aşağı olan ofşor zonalarda qeydiyyatdan keçməklə vergilərin yayındırılmasında, büdcəyə vergilərin tam və vaxtında ödənilməməsində və s. formalarda göstərir.

Vergi nəzarətinin artırılacağı sahələrdən biri xərclərin süni şəkildə artırılması (transfert qiymətləndirmə) hallarının aradan qaldırılması məqsədilə qanunvericilik bazasının yaradılması ilə bağlı olacaq.

Azərbaycanın mövcud vergi qanunvericiliyinin müvafiq müddəaları ölkə hüdudlarından kənarda təsis edilmiş şirkətlərin gəlir və xərclərinin düzgün müəyyən edilməsinə imkan vermir. Belə halların qarşısının alınması məqsədilə ölkə hüdudlarından kənarda, o cümlədən vergi sığınacağı (ofşor) hesab edilən dövlətlərdə və ya ərazilərdə, təsis edilmiş şəxslər tərəfindən həyata keçirilən əməliyyatlar üzrə əldə edilən gəlirlərin transfer qiymətləri tətbiq edilməklə vergiyə cəlb edilməsi üçün qanunvericiliyə dəyişiklik edilməsi nəzərdə tutulur.

Bununla yanaşı, Azərbaycan Respublikası rezidentlərinin güzəştli vergi tutulan ölkələrdə və ya ərazilərdə (ofşor zonalarda) yaradılmış müəssisələrlə əməliyyatlarına səmərəli nəzarət mexanizmlərinin qurulması nəzərdə tutulur. Yeri gəlmişkən, ölkənin hüdudlarından kənarda əldə olunmuş gəlirlərin vergiyə cəlb olunmasında şəffaflığı təmin etmək və səmərəli vergi nəzarəti həyata keçirmək üçün maliyyə məlumatlarının avtomatik mübadiləsi məqsədilə hökumətlərarası müqavilələrin bağlanması sahəsində işlər intensivləşdiriləcək.

Bəzi vergi ödəyiciləri vergi qanunvericiliyi ilə verilmiş hüquqlardan sui-istifadə etməklə müxtəlif sxemlər vasitəsilə vergidən yayınırlar. Beynəlxalq təcrübə nəzərə alınmaqla belə vergi ödəyicilərinin vergitutma obyektlərini şəffaf şəkildə vergiyə cəlb etmək və vergitutma bazasının gizlədilməsinin qarşısını almaq məqsədilə vergi qanunvericiliyində hüquqlardan sui-istifadə əleyhinə müddəaların daxil edilməsi nəzərdə tutulur. Ölkəmizdə mal, iş və xidmətlər üzrə dövriyyələrin rəsmiləşdirilməsi sahəsində mövcud vəziyyətin təhlili göstərir ki, bu sahədə qaimə-fakturaların kağız formasında tətbiqi qaimə-fakturaların uçotunda pərakəndəliyə səbəb olmaqla, uçotun lazımı səviyyədə təşkil olunmamasına və nəticə etibarı ilə vergidən yayınma hallarına şərait yaradır. Bu baxımdan qarşıdakı dövrdə elektron qaimə-faktura sisteminin tətbiqi dairəsi genişləndiriləcək.

Nəzərdə tutulan məsələlərdən biri, sabit vergi sisteminin tətbiqidir. Sabit veri fiziki şəxslərin əldə etdiyi gəlirlərinin həcmindən asılı olmayaraq aylıq sabit məbləğdə müəyyən edilən vergidir. Vergi öhdəliklərinin bu qaydada yerinə yetirilməsi fərdi qaydada sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslərdə vergi inzibatçılığının yüngülləşdirilməsi, vergi ödəməlirinin bəyannamə təqdim edilmədən sadələşdirilmiş qaydada yerinə yetirilməsi məqsədini daşıyır. Bu məqsədlə Vergi Məcəlləsində təklif edilən dəyişiklikdə bu kateqoriyaya aid olan fiziki şəxslərin siyahısının və aylıq sabit vergi məbləğlərinin müəyyən edilməsi nəzərə tutulur.

*(Davamı 7-ci səhifədə)*



# Qanvermə aksiyası keçirilmişdir

## *Avqustun 25-də rayonumuzda qanvermə aksiyası keçirilmişdir*

Bu məqsədlə Azərbaycan Respublikası B.Eyvazov adına Elmi Tədqiqat Hermetologiya və Transfiziologiya İnstitutunun Qan Bankının bir qrup əməkdaşı rayonumuzda olmuşdur.



Uşaq Tibb Mərkəzində səhər tezdən başlayan aksiya günün ikinci yarısı da davam etmişdir.

Rayonun idarə, müəssisə, təşkilatlarının, icra nümayəndəlikləri və bələdiyyə orqanlarının rəhbərləri və işçi kollektivi bu xeyriyyə tədbirində könüllü surətdə böyük həvəslə iştirak etmişdir.

Rayon Uşaq Tibb Mərkəzində xüsusi olaraq ayrılmış kabinetlərdə qan götürülməsinin təşkili üçün lazımi şərait yaradılmışdı. Qan verməyə gələn hər kəs yaxşı bilirdi ki, qan çox böyük həyat əhəmiyyəti daşıyır. Götürülən qanlar əsasən ağır qan xəstəliyindən əziyyət çəkən talassemiyalı, hemofiliyalı və digər qan xəstəlikləri olan insanların müalicəsində istifadə olunur.

Həkimlərin göstərişi ilə yalnız praktik cəhətdən sağlam olan insanlardan qan götürülürdü. Ayrılmış kabinetlərdə həkimlər qan verməyə gələnlərdən lazımi məlumatlar əldə edir, qan qrupunu, hansısa xəstəlik keçirib-keçirməməsini, təzyiqini öyrəndikdən sonra qan götürülməsinə razılıq verilirdi.

İlk qan verməyə gələnlər sırasında rayon İcra Hakimiyyətinin Başçısı Əhməd Muxtarov, RİHBA-nın kollektivi, RPŞ-nın rəisi Ramazan Kərimov və şəxsi heyəti də vardı.

Aksiyada 125 nəfər həmyerlimiz qan vermişdir.

İnsanlar təmənnasız olaraq qan verirlər ki, kiminsə yaşatsınlar, ümidi qana olan xəstələrə həyat bəxş etsinlər, ömürlərinə ömür calasınlar.

Beləliklə, növbəti xeyirxah aksiya uğurla başa çatdı.

***"Hacıqabul"***

## 26 sentyabr ümumxalq səsverməsi (referendum) günüdür

# Əsas niyyət milli dövlət maraqlarının qorunmasıdır

*(Əvvəli 1-cü səhifədə)*

21 il öncə yeni Konstitusiyamız qəbul edilərkən ümummilli lider Heydər Əliyevin Komissiyanın 10 noyabr iclasında dediyi sözlər bu gün zamanın səsi ilə uzlaşır desək yanılmarıq. Müxtəlif illərdə Konstitusiyaya edilən əlavə və dəyişikliklər xalqın dəstəyi ilə qəbul edilmişdir. Çünki cəmiyyət inkişaf etdikcə Konstitusiyada əlavələr və dəyişikliklər etmək zərurəti yaranır. Müstəqilliyimizin ilk illərində qəbul edilən Konstitusiyaya ötən illər ərzində müxtəlif əlavə və dəyişikliklər olunub.

Azərbaycan xalqının iradəsinin bilavasitə və ən yüksək ifadəsi dövlət hakimiyyəti və yerli özünüidarə orqanlarında azad, demokratik seçkilərin keçirilməsi , habelə dövlətimizin həyatının ən mühüm məsələlərinə dair öz rəyini ümumxalq səsverməsi yolu ilə bildirməsidir.

Bu müddəalar müstəqil Azərbaycanın 12 noyabr 1995-ci ildə ümumxalq səsverməsi (referendum) yolu ilə qəbul olunmuş ilk Konstitusiyasında öz əksini tapmışdır. 2002-2009-cu illərdə ölkəmizdə iki referendum keçirilmiş və Konstitusiyaya zəruri dəyişikliklər və əlavələr edilmişdir. Ötən dövr ərzində ölkəmizdə həyata keçirilən bir sıra siyasi və iqtisadi islahatlar, surətli iqtisadi inkişaf, demokratik və hüquqi dövlət quruculuğu yolunda əldə edilmiş nailiyyətlər Azərbaycan Respublikasının Konstitusiyasına yenidən əlavələr və dəyişikliklərin edilməsini zərurətə çevirdi. Məhz buna görə də Azərbaycan Respublikasının Prezidenti 26 iyul 2016-cı il tarixdə Azərbaycan Respublikasının Konstitusiyasında dəyişikliklər edilməsi məqsədilə ümumxalq səsverməsinin (referendumun) 2016-cı il sentyabrın 26-da keçirilməsi haqqında sərəncam imzaladı.

Bu təşəbbüs dövlət başçısının rəhbərliyi ilə həyata keçirilən uğurlu siyasətin məntiqi nəticəsidir. Son illər ölkəmizdə bütün sahələrdə dinamik inkişaf müşahidə olunur. Azərbaycan Cənubi Qafqazın ən güclü dövlətinə çevrilib, onun dünyada tərəfdaş imici möhkəmlənib. Rayonumuzda da böyük abadlıq, quruculuq, yaşıllaşdırma, tikinti işləri görülmüşdür. Hacıqabulun kənd və qəsəbələri də sürətli inkişaf yolu keçmişdir. Abadlıq-quruculuq işləri bu gün də böyük sürətlə davam edir.

Son günlər cənab Prezidentimizin imzaladığı ölkədə sahibkarlığın inkişafına xidmət edən şəffaf və operativ xidmət, təhsil, səhiyyə sahəsində verilən sərəncamlar hər birimizi sevindirir.

Hacıqabullular inanır ki, yeni Referendum Aktı Azərbaycanın növbəti uğurlarının qarantıdır. Əhalimiz məlumatlıdır ki, Konstitusiyaya təklif olunan əlavə və dəyişikliklər 29 maddəni əhatə edir. Bunlardan 23-ü müvafiq maddələrin dəyişiklikləri, 6-sı isə yeni əlavələri nəzərdə tutur. Layihədə qeyd olunan maddələrin məzmunu ilə tanış olduqda görürük ki, növbəti Referendumun keçirilməsi ilə dövlət idarəçiliyi daha da təkmilləşdiriləcək, vətəndaş hüquq və azadlıqları, idarəçilikdə çeviklik, vətəndaşlar arasında bərabərlik, səmimilik ruhu artırılacaq. Təklif olunan müddəalar ümumilikdə beynəlxalq hüquqi inteqrasiya etməklə hüquqi islahatların uğurla aparılmasını şərtləndirir. Bütövlükdə Konstitusiyada edilən dəyişikliklər dövlətçiliyimizin möhkəmləndirilməsinə, vətəndaşlarımızın sosial rifahının yaxşılaşmasına xidmət edəcəkdir.

Konstitusiyanın 8-ci maddəsində qeyd olunur ki, Azərbaycan Respublikasının Prezidenti Azərbaycan xalqının vahidliyini təcəssüm etdirir və Azərbaycan dövlətçiliyinin varisliyini təmin edir. Hamımız anlayırıq ki, ölkəni mümkün təhlükəli təhdidlərdən qorumaq, sabitliyi qoruyub saxlamaq həyati əhəmiyyət kəsb edir.

İnam hər şeyi mümkünləşdirir, ümid isə insanı güclü edir.Respublika prezidenti cənab İlham Əliyevə cəmiyyətimizdə böyük inam var. Bu inam onun irəli sürdüyü Konstitusiya dəyişiklikləri təklifinə insanlarımızın düzgün yanaşmasının əsasında dayanır. Cəmiyyət də bu dəyişiklikləri anlaşma ilə qarşılayır.

Növbəti referendumun məhz xalqımız tərəfindən yüksək etimadla baş tutacağına əminik.

Bütün soydaşlarımız kimi mən də inanıram ki, Konstitusiyada ediləcək əlavə və dəyişikliklər dövlətçiliyimizin möhkəmlənməsinə, vətəndaşlarımızın sosial rifahının yaxşılaşmasına xidmət edəcək.

***Abdulla Zülfüqarov,***
***rayon Ağsaqqallar Şurasının sədri***

## Aqrar sahə

# Pambıqçılığa önəm verilir

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Nazirlər Kabinetinin 2015-ci ildə ölkədə sosial-inkişafın yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında aqrar sektor əməkçiləri qarşısında pambıqçılığı inkişaf etdirmək kimi mühüm bir vəzifəni qarşıya qoymuşdur. Dövlət başçısının bu tapşırığı əksər regionlarda olduğu kimi Hacıqabul rayonunda da uğurla həyata keçirilir.

Bu ilin may ayında ölkə Prezidentinin göstəriş və tapşırıqlarına uyğun olaraq respublikanın bir çox nazirliklərinin məsul şəxslərinin iştirakı ilə rayon İcra Hakimiyyətində müşavirə keçirilmiş, müşavirədə rayonumuzda pambıq əkilməsi istiqamətində geniş tədbirlər planı müəyyənləşdirilmişdir.

Bu il rayonumuzda 526 hektar münbit ərazidə pambıq əkilmişdir ki, bunun 440 hektarı rayonumuzun Padar qəsəbəsi ərazisində, 86 hektarı isə Kür çayı ətrafında yerləşən kəndlərin ərazisindədir.

Sahələrdə yüksək repreduksiyalı çiyiddən səpin aparılmış, səpindən əvvəl malalama, yumşaltma işləri həyata keçirilmiş, pambıq əkinlərinə çıxış suyu verilmişdir. Əkin sahələrində aqrotexniki tədbirlərin düzgün və vaxtında keçirilməsi nəticəsində sahələrdə normal çıxış alınmış, bol məhsul əmələ gəlmişdir. Cərgələrarası becərmə-kultivasiya və digər aqrotexniki işlər görülmüş, iyun ayının axırlarında 1-ci vegetasiya suvarması həyata keçirilmişdir. Suvarmadan öncə sahələrə əlavə yemləmə məqsədilə kifayət qədər azot gübrəsi verilmişdir. Hazırda tarlalarda 3-cü vegetasiya suvarması həyata keçirilir. Ehtiyac olan sahələrdə suvarmadan əvvəl pambığın xəstəlik və ziyanvericilərinə qarşı kimyəvi mübarizə işləri aparılmışdır.

Becərmə işinin yüksək keyfiyyətlə aparılması, bitişin keyfiyyəti kənd əməkçilərində sahələrdən bol məhsulun toplanacağı inamını yaradır.

***Nazim Fətixanoğlu***

# Qarasuyun "ağ qızıl"ı



***Ölkəmizdə pambıq və barama istehsalının artırılmasına dair möhtərəm Prezidentimiz İlham Əliyevin məlum göstərişinə rayonumuzun aqrar sahəsində çalışanlar da öz əməli işləri ilə cavab verirlər. Bu sahənin inkişafına dövlət səviyyəsində göstərilən diqqət, qayğı, maddi və mənəvi dəstəkdən ruhlanan torpaq mülkiyyətçiləri, sahibkarlar, həmçinin uzun illər pambıq kimi qiymətli strateji və texniki bitkinin yetişdirilməsində zəngin təcrübəsi olan təsərrüfat adamları bu il pambıq əkininə daha böyük önəm veriblər.***

Bu il rayonumuzun Qarasu kəndində də pambıq əkinlərinə başlanılmış, nəticəsi isə çox uğurlu alınmışdır. Rayonumuzun bu axar-baxarlı kəndində bu il ilk dəfədir ki, pambıq əkilir. Torpaq mülkiyyətçisi İslam Hüseynov ölkə prezidentinin pambıqçılığa dair tövsiyyə və tapşırıqlarından sonra öhdəsinə məqsəd qoymuşdur ki, məhz o da bu qiymətli bitkinin əkilib becərilməsində öz qüvvəsini sınasın. Nəticə isə uğurlu alınmışdır.

İslam Hüseynov bu il 40 hektar sahədə pambıq əkmişdir. Pambıq kolları artıq bara dolmuş, sahələrdə son tamamlama işləri gedir. Söhbət zamanı o, qeyd etdi ki, bu il rayonda pambıqçılıqla məşğul olan torpaq mülkiyyətçiləri pambığın yetişdirilməsindən məmnundurlar. Bitkiyə göstərilən aqrotexniki qulluq, becərmənin normativ tələblər səviyyəsində aparılması həm bitişin normal alınmasına, həm də keyfiyyətə müsbət təsirini göstərir. Artıq sahələrdə kətmənləmə, kultivasiya işi aparılıb. Ümumilikdə isə aqrotexniki qaydalara uyğun olaraq pambıq sahələri üzrə 4 dəfə kətmənləmə aparılmışdır. Bitkiyə 3-cü su verilib.

Bitkiyə suyun verilməsinin vacibliyindən danışan İslam Hüseynov onu da qeyd etdi ki, təsərrüfat adamları yaxşı bilir ki, günəş qədər su da bitki üçün eyni dərəcədə mühümdür. Odur ki, gərək pambığın ayağı suda, başı günəşdə olsun. Yazda MTK-nın Sabirabad rayon filialı ilə müqavilə bağladıqlarını qeyd edən İ.Hüseynov onu da bildirdi ki, şumdan, əkindən başlamış bu günə kimi lazımi qədər mineral gübrələr, ziyanvericilərə qarşı zəhərli maddələr alınmışdır. Bütün bunlar onu göstərir ki, rayonumuzun pambıqçılıq sahəsində keçmişdə əldə etdiyi uğurlar yenə də təkrarlanacaqdır.

İslam Hüseynov söhbət zamanı kənd təsərrüfatına, eyni zamanda onun mühüm sahəsi olan pambıqçılığın dirçəldilməsinə, onun gələcəkdə inkişaf etdirilməsinə dövlət tərəfindən göstərilən diqqət və qayğını ürəkdən bəyəndiyini bildirdi. Dedi ki, pambıq strateji əhəmiyyətli bitkidir. Onun qiymətinin artırılması torpaq mülkiyyətçilərində bu sahəyə marağı artırmışdır. Həm də işsizlik problemini xeyli aradan qaldırmışdır. İndi sahələrdə kənd camaatı çalışır. Pambığın sahələrdən yığılmasında da bu insanlar iştirak edəcəklər. Deməli, xeyli insan evinə, ailəsinə çörəkpulu aparacaqdır. Bu insanlar indi sahələrdə bol məhsul yetişdirilməsi üçün çalışırlar.

Bəli, həqiqətən də pambıq elimizin sərvəti, tarlaların "ağ qızılı"dır. Bir neçə gün də keçəcək, zümrüd rəngli tarlalar ağ örpəyə bürünəcək və mövsümün "ağ qızıl"ının toplanıb tədarük məntəqələrinə verilməsi kimi qızğın kampaniya başlanacaqdır.

***X.Hüseynova***

# İxtisaslaşdırılmış kurslar başa çatmışdır

***Azərbaycan Respublikası Prezidentinin 27 dekabr 2011-ci il tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində MİLLİ fəaliyyət Proqramı" əsasında 58 saylı Hacıqabul-Kürdəmir seçki dairəsinin dairə seçki komissiyasında komissiya üzvləri və məntəqə sədrləri üçün 3 günlük seçki hüququ üzrə ixtisaslaşdırılmış kurslar keçirilmişdir.***

Kursların keçirildiyi günlər MSK-nın üzvü Etibar Quliyev və Təşkilat şöbəsinin böyük məsləhətçisi Afiq Alıyev "Referendum aktı layihəsinin seçicilərə çatdırılmasında aşağı seçki komissiyalarının vəzifələri. Referendum prosesində KİV-lərin rolu, yerli və xarici müşahidəçilərin hüquq və vəzifələrinin praktik tərəfləri", rayon İcra Hakimiyyəti Başçısının müavini Fikrət Qasımov "Seçici siyahıları ilə işin aparılması, referendumqabağı təşviqatın aparılmasına şərait yaradılması, bildirişlərin seçicilərə çatdırılması və s. bu kimi istiqamətlərdə yerli icra və bələdiyyə qurumlarının rolu və onların seçki komissiyaları ilə səmərəli qarşılıqlı əlaqələrinin qurulması", rayon Məhkəməsinin hakimi Həmid Əzizov "Referendumda iştirak hüququ və onun təminatının qanunvericilik əsasları, aşağı seçki komissiyaları və məhkəmələr tərəfindən referendumda iştirak hüququnun qorunması mexanizmləri", rayon polis şöbəsinin rəisi Ramazan Kərimov "Seçici siyahılarının təkmilləşdirilməsi, rəsmi referendum sənədlərinin daşınması və saxlanılmasının təhlükəsizliyinin təmin edilməsi, habelə asayişin qorunmasında Daxili İşlər Nazirliyi orqanlarının rolu. Onların seçki komissiyaları ilə qarşılıqlı əlaqələri." rayon prokuroru Rövşən Maqsudov "Referendumun subyektləri, referendumda iştirak hüquqlarının pozulmasına görə məsuliyyət nəzərdə tutan qanunvericilik aktları və məsuliyyət növləri", DSK-nın sədri Məhəmməd Hacıyev "Referendumun keçirilməsi, səslərin hesablanması və nəticələrin rəsmiləşdirilməsi. Bu istiqamətdə MnSK-nın fəaliyyətinin təşkili və vəzifələri" mövzusunda məruzə ilə çıxış etmişlər. DSK üzvləri və MnSK-nın sədrlərini maraqlandıran suallar ətraflı cavablandırılmışdır.

***"Hacıqabul"***

# 58 SAYLI HACIQABUL-KÜRDƏMİR SEÇKİ DAİRƏSİ ÜZRƏ SEÇKİ MƏNTƏQƏLƏRİNİN

# D İ S L O K A S İ Y A S I

| Məntəqə-lərin nömrəsi (ardıcıllıqla) | Seçki məntəqə-lərinin yerləşdiyi yer (ünvan) və binanın (otağın) nömrəsi | Binanın və otağın nömrəsi | Seçki məntəqəsinin hüdudları (seçki məntəqəsi yaşayış məntəqəsinin bir hissəsini əhatə etdikdə evlərin nömrələri nəzərə alınmaqla küçələrin adları göstərilir) | Seçici-lərin sayı | Məntəqə seçki komissiyası sədrinin soyadı, adı atasının adı. | İş yeri, tutduğu vəzifə | Telefon nömrələri: Seçki məntəqəsi | Telefon nömrələri: Ev, mobil |
|---|---|---|---|---|---|---|---|---|
| 1 saylı<br>seçki məntəqəsi | Hacıqabul şəhər<br>1 saylı tam orta məktəb binasının qərb tərəfi<br>Xətai küçəsi-6 | Bina -6<br>Otaq -3 | **Nəsimi küçəsi: bina** – 1. ev – 1-16; bina –2, 2a, 3 ev – 1-16, bina – 4 ev – 1 -16, bina – 5,6,7, 7/2,8,10,12, 14,16,18,18A,20,22,24,26,26A,28,3032,34,34A,36,38, 40-58, 42,42A,44,52,54,56,60,68,92,100; **Şirvan küçəsi: ev**– 1-6,6A,7-90; **S.Almazov küçəsi:ev-**2-77; **N.Tusi küçəsi: ev** – 6, 9,10,34,36,38,40,50,54,55,56 **Xanlar küçəsi: ev**– 4-6, 6a, 7-28,28a,29-34,34a,36,38, 38A,38B,40-42, 42A,44, 44a, 44b,46,46a,48; **Dədə Qorqud küçəsi: ev**–1,5,7, 11,12,14,15,17,23,26,28, 33,34,35,37,39,40, 41; **Savalan küçəsi: ev** –10-20, 20A; **Ü.Hacıbəyov küçəsi:** ev 7a, 12a, 17a, 20a, 34; **R.Behbudov küç.: ev**- 23; **A.Şaiq küçəsi: ev**-3,6,7,18,26,27,34,56; **A.Dadaşov küçəsi: ev** -1,1/9; **Ə.Şəlinski küçəsi: ev** – 2,4,5,7,9,11,13,14,15,16,20, 21,22,23,24,25,26,27,28,29,30,31,32,33,34,35,36,37, 38, 39,40,41,42,43,44,45,46,47,48,49,50,50a,54,61; **Bakıxanov küç:** 7,13,17,17a,18,20,21,22,23,24,25,35, 42, 43, 44, 45-75; **Ə.Haşımov küçəsi: ev**–1,2,4,5, 6, 8,9,11,13,16,18,20,23,24,26,27,30,32,34,36,37,38, 41,44,46,50-56; **Bakı küçəsi: ev**–3-22,35,35A,37,39, 45, 47,68,70,70A,70B,71,72,75,75a,76,80,80A,**Babək küçəsi: bina**–1. ev–1-15,bina–2.ev–2-20; bina–4.ev–1-20;bina–69 ev-16; **Xətai küçəsi:** bina – 2. ev–1-16;3/14,bina–4 ev–1-16; bina–6 ev–1-16;bina –6a ev–1-6;bina–8 ev–1-16 bina –10 ev–1 -16,12-38, 38A, 42-50,50A,52, 54,129; **V.Talıbov küçəsi:-**10,16, 28, 46, 66; **Dəmir yol binaları:** bina 53/5,66,66/4. bina 69, ev 1-17; **İ.Qayıbov küçəsi** – 1,1B,2,2A,4,4A; **M.Əsədov küçəsi**– 2,10,18,20,22,28,46,52,62,64,78, 86; **N.Nərimanov küçəsi:** -5-11,16-22,28,36,40,48, 62,66; S.**Vurğun küçəsi** – 38,40,44,46,48; **M.Füzuli küçəsi**:-38,42,44,50; **H.Həmidov küçəsi**:-D/Ybina 69/7,69/8; **Koroğlu küçəsi:-** 5,6,6A,12,14,16,18,34,48 **Şəhriyar küçəsi** – 32,36,40,54.72A; | 1447 | Ağamalıyeva<br>Camilə<br>Balaqardaş | Hacıqabul şəhər<br>1 saylı tam orta məktəb<br>direktor | 4-37-54 | 4-20-93<br>050<br>5141842 |
| 2 saylı<br>seçki məntə-qəsi | Hacıqabul şəhər<br>1 saylı tam orta məktəb binasının şərq tərəfi<br>Xətai küçəsi-6 | Bina -6<br>Otaq -8 | **M.Əsədov küçəsi: ev** – 1-10,10a,12-14,14a,14b,15-20,20a, 22,24,24A,26-30,30a,32, 34,34A, 36,36A, 40, 40A,40B,42-48,48A,48B,48Q,50-56,56A,58, 58A,60, 62,62A,62B,64,66,66A,70,72,72a,74,74,A,76,76A,78, 78A,82-86,88,90,92,94,96,98,100,102,104; **N.Nərimanov küçəsi:ev** 2-9,9B,10-18, 18A,20,20A, 22-26, 26A,28,30,30A,32,34,36,36A,38-42,42A,44-54, 54A, 56-68; **V.Talıbov küçəsi ev**–2, 2A, 3-18,18A, 20-28,28A,30,30A,30B,32-38,38A,40,42,44,44A, 46,48, 48A, 48B, 50-56,56A,58-72;**Koroğlu küçəsi:ev**– 1,2,2A,3,5,6,6A,6B,8,10,10A,10B,12,12A, 14,14A, 16, 16A,16B,18, 20,24,24A,28,28A,32, 34,36, 36A, 38,40, 40A,40B,42-68 ;**Füzuli küçəsi: ev**–8-18, 18A, 20,20A, 22,24,24A, 24B,24Q,26,26A, 26B,28, 30,30A, 30V, 30Q, 34,34A,34B,36,36A,38,38A,42-68; **N.Tusi küçəsi: ev**–1-6,6a,7-10,10A,12-24,24B,26, 28,28A, 30-36,36a,38-46,46a,48,50,50a,50b,50v; **Xətai küçəsi: ev**– 6/11,6/14,12,12A,14-38,38a,38b,42,42a, 44-50,50a,52,54; **S.Vurğun küçəsi: ev**–38, 40,42, 42A,44,44B,46, 48,49;**Şəhriyar küçəsi:ev**–1-74; **A.Bakıxanov küçəsi: ev** – 5-52; **İ.Qayıbov küçəsi: ev** – 2 ,2a, 4, 6,7; **Balıqçı qəsəbəsi ev-**1-20. | 1384 | Əliyev<br>Rahim<br>Ağalar | Hacıqabul şəhər 1 saylı tam orta məktəb müəllim | 4-39-32 | 4-34-52<br>051<br>4126272 |
| 3 saylı<br>seçki məntə-qəsi | Hacıqabul rayon Mədəniyyət evinin binası<br>H.Əliyev küçəsi – 1 | Bina -1<br>Otaq -2 | **H.Həmidov küçəsi:D/Y bina** – 1 ev –1-20;bina–2. ev–1-11; bina – 3. ev – 1-4; bina – 4. ev – 1-27; bina– 5. ev–1-16; bina– 6. ev– 1-20; bina– 7. ev– 1-20; bina – 8. ev -1-6; bina – 10. ev – 1-4; D/Y-11, -D/Y-19,D/Y19/4, D/Y-20- D/Y62, bina–65.ev-12; bina -66. ev–1-4; bina–67.ev–1-12; bina–68. ev–1-12; bina–104. ev–1-6; ev–112-142, 142a, ev–143-148,148A, 149-154, 154A,155,155A,156,157,157A,158-167,167a 168,168A,169,169A,170,172,172A,174,176,176A,180,184 ,184A,186. **Ə.Vahid küçəsi: D/Y bina** – 20-D/Ybinas ?-59,59A,59B, D/Y bina 60-D/Y bina-69, D/Ybina-98, **H.Aslanov küçəsi: bina** –1. ev–1-12, 2,3; bina–3 ev–3-5,4-7,7A,8-39; **B.İbrahimov küçəsi:** bina –1. ev–1-6; bina –2. ev–2-10; **N.Allahverdiyev küçəsi: ev** –1-3,3a,4,5, 5a,6-9, 9a,10-17,17a,17b,19, 19a, **Hərbi şəhərcik: ev** – 50-54; **Neft ötürücüsü küçəsi** :- bina–1,ev–1-20, bina–2, ev–1-5, bina – 5, ev-1 bina–3 ev– 1; **Təbriz küçəsi** – D/Y binası-67 | 1375 | Quliyev<br>Ağalar<br>Balaqardaş | Hacıqabul rayon Dəmir Yol Xəstəxanası baş h?kim | 4-22-63 | 4-38-83<br>050<br>3221077 |
| 4 saylı<br>seçki məntə-qəsi | Hacıqabul şəhər<br>2 saylı tam orta məktəbin binası | Bina -15<br>Otaq -2 | **H.Z.Tağıyev küçəsi:** bina – 71/1,71/2,72/1, 83-103,103A,104-107, 107a, 107b, 109-230; **Ə.Vahid küçəsi: ev** – 1,1A,2,3,3A,4,5,5B,6, 7,7B,8,9,11,12, 12A,13-34,34A,36-79,79/2,79/3,80A,82 ,83,83a, 83b, 84,84a, 85- | 1332 | Ələkbərov<br>Pirverdi<br>Əlisa | Hacıqabul şəhəri 2 saylı tam orta məktəb | 4-37-70 | 070<br>9796641 |

# 58 SAYLI HACIQABUL-KÜRDƏMİR SEÇKİ DAİRƏSİ ÜZRƏ SEÇKİ MƏNTƏQƏLƏRİNİN

# D İ S L O K A S İ Y A S I

| | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| 16 saylı seçki məntə-qəsi | Padar qəsəbə tam orta məktəbin binası | Otaq–8 | Padar qəsəbəsindəki bütün fərdi yaşayış evləri daxildir. | 619 | Ələkbərov Ələsgər Ələkbər | Padar qəsəbə tam orta məktəb direktor | 6-01-13 | 050 3278593 |
| 17 saylı seçki məntə-qəsi | Abdulabad kənd kitabxanasının binası | Otaq – 5 | Abdulabad kənd klubunun ərazisində olan bütün fərdi yaşayış evləri daxildir. | 1043 | İsgəndərov Eyyub Məzahir | Hacıqabul rayon Bitki Mühafizə Mərkəzi rəis | 68-1-00 | 050 3520862 |
| 18 saylı seçki məntə-qəsi | Abdulabad kənd tam orta məktəbin binası | Otaq – 5 | Abdulabad kəndindəki məktəb ərazisində olan bütün fərdi yaşayış evləri daxildir. | 1043 | Həsənov Şamo Nəsir | Kür Regional Meşə Tingçilik Müəssisəsi direktor | | 070 9441285 |
| 19 saylı seçki məntə-qəsi | Kolanı kənd tam orta məktəbin binası | Otaq–6 | Kolanı kəndindəki bütün fərdi yaşayış evləri daxildir. | 1335 | Əliyeva Arifə Ataxan | Kolanı kənd tam orta məktəb direktor | 68-1-10 | 050 5583412 |
| 20 saylı seçki məntə-qəsi | Talış Kür Su Kəmərləri idarəsinin binası | Otaq–18 | Talış kəndindəki bütün fərdi yaşayış evləri daxildir. | 1162 | Cahangirov Kifayət Qaraxan | Hacıqabul REŞ-si nəzarətçi mühəndis | 67-3-45 | 050 5388976 |
| 21 saylı seçki məntə-qəsi | Meyniman kənd tam orta məktəb binasının şərq tərəfi | Otaq–9 | I Meyniman kəndindəki bütün fərdi yaşayış evləri daxildir. | 958 | Abdullayev Elman Rəhman | Meyniman kənd tam orta məktəb direktor | 65-2-73 | 050 3772846 |
| 22 saylı seçki məntə-qəsi | Meyniman kənd orta tam məktəb binasının qərb tərəfi | Otaq–5 | II Meyniman kəndindəki bütün fərdi yaşayış evləri daxildir. | 334 | Nəhmədov Vahid Bilal | Talış Kür Su Kəmərləri İdarəsi mühəndis | 65-2-73 | 050 3859176 |
| 23 saylı seçki məntə-qəsi | Meyniman kənd orta tam məktəb binasının II mərtəbəsi | Otaq–12 | Axtaçı-Şirvan kəndindəki bütün fərdi yaşayış evləri daxildir. | 376 | Qafarov Şirməmməd Ağaverdi | Şirvan şəh. Yüksək Gərginlikli Elektrik Şəbəkəsi mühəndis | 65-3-31 | 050 7483309 |
| 24 saylı seçki məntə-qəsi | Ağacanlı kənd tam orta məktəbin binası | Otaq–2 | Ağacanlı kəndindəki bütün fərdi yaşayış evləri daxildir. | 242 | Bağırov Bilal Əliverdi | Ağacanlı kənd tam orta məktəb direktor | 61-2-71 | 070 3535987 |
| 25 saylı seçki məntə-qəsi | Xilə kənd ümumi orta məktəbin binası | Otaq-4 | Ələdi və Bürvənd kəndlərindəki bütün fərdi yaşayış evləri daxildir. | 265 | Qənbərov Cahangir Gülağa | Xilə kənd ümumi orta məktəb direktor | 6-17-13 | 67-1-20 055 6544447 |
| 26 saylı seçki məntə-qəsi | Navahı kənd Mədəniyyət evinin binası | Otaq–3 | Navahı kəndinin mərkəzi yolunun qərb hissəsindəki bütün fərdi yaşayış evləri daxildir. | 875 | Mustafayev Mərdan Mahmud | Navahı kənd Mədəniyyət evi müdir | 62-2-74 | 050 3622968 |
| 27 saylı seçki məntə-qəsi | Navahı kənd tam orta məktəbin binası | Otaq–4 | Navahı kəndinin mərkəzi yolunun şərq hissəsindəki bütün fərdi yaşayış evləri daxildir. | 756 | Əliyev İbrahim Ağalar | Navahı kənd tam orta məktəb direktor | 62-2-00 | 050 5194438 |
| 28 saylı seçki məntə-qəsi | Pirsaat qəsəbə tam orta məktəbin binası | Otaq–10 | Pirsaat qəsəbəsindəki bütün fərdi yaşayış evləri daxildir. | 591 | Kərimov Əlimövsüm Kərim | Pirsaat qəsəbə tam orta məktəb direktor | 61-4-13 | 050 5188960 |
| 29 saylı seçki məntə-qəsi | Navahı qəsəbə 2 saylı orta tam məktəbin binası | Otaq–6 | Navahı qəsəbəsi, Navahı qəsəbəsindəki AES-də və Dəmiryol stansiyasının ərazisindəki bütün fərdi yaşayış evləri daxildir. | 1360 | Xəlilov Baba Əlibala | Fərdi təsərrüfatçı | | 051 7872000 |
| 30 saylı seçki məntə-qəsi | Rəncbər kənd Mədəniyyət evinin binası | Otaq–1 | Rəncbər kənd Mədəniyyət evinin, Rəncbər kənd İ.Ə.V. üzrə nümayəndəliyin binasının ərazisindəki və Rəncbər kəndinin mərkəzi yolunun şimal hissəsindəki bütün fərdi yaşayış evləri daxildir. | 1016 | Salmanov Sübhəli Əlif | Rəncbər kənd tam orta məktəb müəllim | 64-2-13 | 070 9502321 |
| 31 saylı seçki məntə-qəsi | Rəncbər kənd tam orta məktəbin binası | Otaq – 8 | Rəncbər kənd tam orta məktəbin, Rəncbər kənd Rabitə və Poçt şöbələrinin ərazisindəki bütün fərdi yaşayış evləri daxildir. | 953 | İbrahimov Əlisultan Hacıbala | Rəncbər kənd tam orta məktəb direktor | 64-2-82 | 050 3258589 |
| 32 saylı seçki məntə-qəsi | Qubalı-balaoğlan kənd tam orta məktəb binasının şimal tərəfi | Otaq–3 | Qubalıbalaoğlan mərkəzi yolunun şərq hissəsindəki bütün fərdi yaşayış evləri daxildir. | 876 | Əzizov Bahadır Ağahüseyn | Qubalı-balaoğlan kənd tam orta məktəb direktor | 66-1-13 | 070 2443519 |
| 33 saylı seçki məntə-qəsi | Qubalı-balaoğlan kənd tam orta məktəb binasının cənub tərəfi | Otaq–5 | Qubalıbalaoğlan mərkəzi yolunun qərb hissəsindəki bütün fərdi yaşayış evləri və Pirsaatçay kəndindəki bütün fərdi yaşayış evləri daxildir. | 848 | İsmayılov Şirəli Xanat | Qubalı-balaoğlan kənd tam orta məktəb müəllim | 66-1-13 | 070 3466918 |
| 34 saylı seçki məntə-qəsi | Qızılburun kənd tam orta məktəbin binası | Otaq-7 | Qızılburun kəndindəki bütün fərdi yaşayış evləri daxildir. | 665 | Rəhimov Nüsrət Həzrət | Qızılburun kənd tam orta məktəb direktor | | 050 5353678 |
| 35 saylı seçki məntə-qəsi | Arbulaq kənd tam orta məktəbin binası | Otaq – 5 | Ələt – Hacıqabul yolunun şimal hissəsində olan Arbulaq kəndindəki bütün fərdi yaşayış evləri daxildir. | 1162 | İsmiyev Bəyməmməd Saleh | Arbulaq kənd tam orta məktəb direktor | 69-1-13 | 050 5571722 |
| 36 saylı seçki məntə-qəsi | Kürçülü kənd ümumi orta məktəbin binası | Otaq – 5 | Ələt – HacIqabul yolunun cənub hissəsində olan Kürçülü kəndindəki bütün fərdi yaşayış evləri daxildir. | 844 | Dadaşov Rasim Qədir | Kürçülü kənd ümumi orta məktəb direktor | | 206-92-13 050 4160781 |

# 58 SAYLI HACIQABUL-KÜRDƏMİR SEÇKİ DAİRƏSİ ÜZRƏ SEÇKİ MƏNTƏQƏLƏRİNİN

# D İ S L O K A S İ Y A S I

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| 37 saylı seçki məntə-qəsi | Şorbaçı kənd tam orta məktəbin binası | Otaq–12 | Birinci Paşalı, İkinci Paşalı və Şorbaçı kəndlərindəki bütün fərdi yaşayış evləri daxildir. | 983 | Şükürov Camulla Günəş | Şorbaçı kənd tam orta məktəb müəllim | |
| 38 saylı seçki məntə-qəsi | Udullu kənd tam orta məktəbin binası | Otaq–4 | Birinci Udullu kəndindəki bütün fərdi yaşayış evləri daxildir. | 1196 | Rzayev Eldar Məlik | Udullu kənd tam orta məktəb müəllim | |
| 39 saylı seçki məntə-qəsi | Tava kənd tam orta məktəbin binası | Otaq – 1 | İkinci Udullu kəndindəki bütün fərdi yaşayış evləri daxildir. | 965 | Həşimov Fikrət Həsən | Tava kənd tam orta məktəb müəllim | 61-5-13 |
| 40 saylı seçki məntə-qəsi | Tağılı kənd tam orta məktəbin binası | Otaq – 6 | Tağılı kəndindəki bütün fərdi yaşayış evləri daxildir. | 245 | Cəfərzadə Elçin Əhməd | Tağılı kənd tam orta məktəb direktor | |
| 41 saylı seçki məntə-qəsi | Qubalı kənd ümumi orta məktəbin binası | Otaq – 3 | Qubalı kəndindəki bütün fərdi yaşayış evləri daxildir. | 342 | Tağıyev Nazim Fazil | Qubalı kənd ümumi orta məktəb müəllim | |
| 42 saylı seçki məntə-qəsi | Karrar kənd tam orta məktəb binasının şərq tərəfi | Otaq – 9 | Karrar kəndinin mərkəzi yolunun şərq tərəfindəki bütün fərdi yaşayış evləri daxildir. | 1022 | Səfərov Şiraz Yunis | Kürdəmir rayon Aqrar Elm Mərkəzi aqranom | 7-12-16 |
| 43 saylı seçki məntə-qəsi | Karrar kənd tam orta məktəb binasının qərb tərəfi | Otaq – 3 | Karrar kəndinin mərkəzi yolunun qərb tərəfindəki bütün fərdi yaşayış evləri daxildir. | 743 | Rzayev Rza Qulaməli | Kürdəmir rayon Kür-Araz ətrafı suya nəzarət mərkəzi mühəndis | 7-12-16 |
| 44 saylı seçki məntə-qəsi | Ərşəli kənd tam orta məktəbin binası | Otaq–5 | Ərşəli kəndindəki bütün fərdi yaşayış evləri daxildir. | 580 | Orucov Əli Ağış | Ərşəli kənd tam Orta məktəb direktor | 71-3-59 |
| 45 saylı seçki məntə-qəsi | Garis-Əyribənd kənd tam orta məktəbin binası | Otaq – 8 | Garis-Əyribənd kəndindəki bütün fərdi yaşayış evləri daxildir. | 550 | Omarov Mehman Kərəm | Garis-Əyribənd kənd tam orta məktəb müəllim | 044 2450032 |
| 46 saylı seçki məntə-qəsi | Muğanlı kənd tam orta məktəbin binası | Otaq – 4 | Muğanlı kəndindəki bütün fərdi yaşayış evləri daxildir. | 608 | Piriyev Elmxan Ağaşəfi | Muğanlı kənd tam orta məktəb müəllim | 35-2-20 |
| 47 saylı seçki məntə-qəsi | Xınıslı kənd tam orta məktəbin binası | Otaq – 5 | Xınıslı kəndindəki bütün fərdi yaşayış evləri daxildir. | 508 | Məmmədov İnqilab Barat | Xınıslı kənd tam orta məktəb direktor | 36-2-50 |
| 48 saylı seçki məntə-qəsi | Karrar qəsəbə tam orta məktəbin binası | Otaq – 3 | Karrar qəsəbəsindəki bütün fərdi yaşayış evləri daxildir. | 1118 | Xanlarov Tərlan Zakir | Karrar qəsəbə tam orta məktəb müəllim | 38-2-86 |

## Dini radikalizmə və xurafata qarşı maarifləndirici tədbir keçirildi






Bu günlərdə Qubalıbalaoğlan kənd klubunda Dini ekstremizmə qarşı mübarizə mövzusunda maarifləndirici tədbir keçirildi.

Tədbirdə rayon İcra Hakimiyyəti Başçısı Aparatının dini qurumlarla işin təşkilatçısı Elvin Şıxəliyev, rayon Gənclər və İdman idarəsinin rəisi Saleh Ələsgərov, rayon Mədəniyyət və Turizm Şöbəsinin müdiri Elnur Əmiraslanov çıxış edərək bu gün ölkəmizin dünya ölkələri üçün multikulturalizm və tolerantlıq nümunəsi olduğunu, müxtəlif xalqların, milli azlıqların, etnik qrupların birgə təhlükəsiz yaşamasına şərait yaradıldığını qeyd etdilər.

Tədbirdə həmçinin, kənd sakinlərinin dini məsələlərlə bağlı sualları cavablandırıldı. Sonra dini-maarifləndirici "Fitnə" filmi nümayiş olundu.

## Vergi inzibatçılığının həyata keçirilməsində yeni mərhələ

*(Əvvəli 2-ci səhifədə)*

Bununla yanaşı, rəqəmsal iqtisadiyyatın vergiyə cəlb edilməsi ilə bağlı mexanizmlər hazırlanacaq. İnformasiya-kommunikasiya texnologiyaları vasitəsilə həyata keçirilən ticarət sövdələşmələrinin (e-ticarət) sayı durmadan artmaqdadır və gələcəkdə də bu tendensiyanın artımı şübhəsizdir. Elektron ticarətdə "elektron pulların" tətbiqi bu sahəyə vergi nəzarətinin həyata keçirilməsini çətinləşdirir. Vergitutma bazasının genişləndirilməsi, habelə rəqəmsal iqtisadiyyat çərçivəsində aparılan əməliyyatların vergiyə cəlb edilməsinin işlək mexanizminin yaradılması üçün Vergilər Nazirliyinin mütəxəssisləri ciddi işlər həyata keçirirlər.

Bunlarla yanaşı, "Könüllü vergi açıqlaması" ("Voluntary tax disdosure") sisteminin tətbiqi nəzərdə tutulur. Könüllü vergi açıqlaması vergi orqanı tərəfindən keçirilən vergi yoxlaması zamanı aşkar olunmamış səhvlərin, o cümlədən vergi məbləğlərinin düzgün hesablanmaması, azaldılması və s. kameral vergi yoxlaması üçün qanunla müəyyən edilmiş müddət bitdikdən sonra vergi ödəyicisi tərəfindən könüllü olaraq bəyan edilməsini nəzərdə tutur. Bu isə vergi ödəyicisinə dəqiqləşmiş bəyannamə verilməsi hüququnu verir ki, həmin bəyannamə ilə könüllü açıqlanmış vergi məbləğlərinə görə vergi ödəyicisinə faiz hesablanması və maliyyə sanksiyasının tətbiqi istisna ediləcək.

Daha bir yenilik vergidən yayınma hallarının qarşısını almaq məqsədilə ictimai məlumatlandırma ("Whistleblow") mexanizminin hazırlanmasıdır. Vergi Məcəlləsinin 73-cü maddəsinə əsasən görülmüş işlərin və ya göstərilmiş xidmətlərin haqqını ödəyən, yaxud hər hansı digər ödəmələr aparan şəxs, qanunla müəyyən edilmiş hallarda və qaydada ödənilmiş məbləğlər haqqında vergi orqanına məlumat verməlidir. Vergi Məcəlləsi qüvvəyə mindiyi tarixdən həmin maddə əhəmiyyətli dərəcədə tətbiq edilməyib. Sərəncamın icrası məqsədilə bu maddədə müəyyən edilmiş müddəalar daha da genişləndirilib, beynəlxalq təcrübə nəzərə alınmaqla vergidən yayınan vergi ödəyiciləri üzərində ictimai nəzarət mexanizminin yaradılması və vergidən yayınma faktları barədə vergi orqanına məlumat verən şəxslərin mükafatlandırılması nəzərdə tutulur.

Qeyd edək ki, avqustun 5-də Vergilər Nazirliyində ölkə Prezidentinin Sərəncamı ilə əlaqədar kollegiya iclası da keçirilib və Sərəncamla müəyyən edilmiş tapşırıqların icrası ilə bağlı Tədbirlər Planı qəbul edilib. Tədbirlər Planında Sərəncamda müəyyən edilmiş bütün məsələlər üzrə görüləcək işlər, bu işlərə məsul struktur vahidləri və icra müddətləri müəyyən edilib. İlin sonuna kimi Planın icrası təmin ediləcək.

***Ədalət Fərəcov,***
***5 saylı Ərazi Vergilər İdarəsinin rəisi***

# HACIQABUL

№ 18-19 (652-653) 29 avqust 2016-cı il


# BİLDİRİŞ

## Ciddi hesabat blanklarından istifadə barədə

Hörmətli vergi ödəyicisi!

Bildiririk ki, 2016-cı ildə ƏDV qeydiyyatına alınmağınıza baxmayaraq, tərəfinizdən ciddi hesabat blankı olan qaimə-faktura çap etdirilmədiyi və nəzarət kassa aparatı quraşdırılmadığı müəyyən edilmişdir.

Vergi Məcəlləsinin 16-cı maddəsinə əsasən qanunvericiliklə nəzərdə tutulmuş qaydada gəlirlərinin (xərclərinin) və vergitutma obyektlərinin uçotunu aparmaq, nağd pul hesablaşmaları aparılan zaman alıcıya çek, qəbz, bank çıxarışları və digər ciddi hesabat blanklarını təqdim etmək vergi ödəyicisinin vəzifələrinə aid edilmişdir.

Vergi Məcəlləsinin 130-cu maddəsinə əsasən vergi ödəyicisi vergi tutulan gəlirin (mənfəətin) dəqiq əks etdirilməsi üçün sənədləşdirilmiş məlumat əsasında gəlirlərinin və xərclərinin vaxtlı-vaxtında dəqiq uçotunu aparmağa borcludur.

Nazirlər Kabinetinin 27 avqust 2004-cü il tarixli 118 nömrəli Qərarı ilə təsdiq edilmiş "Müəssisə və təşkilatların, habelə sahibkarlıqla məşğul olan fiziki şəxslərin iş xüsusiyyətlərinə uyğun olaraq ciddi hesabat blanklarının tərtibi və tətbiqi Qaydaları"na əsasən təşkilati-hüquqi formasından asılı olmayaraq təşkilatlar və fərdi sahibkarlar maliyyə-təsərrüfat fəaliyyətində əmtəə-pul dövriyyəsini əks etdirən əməliyyatları forma və rekvizitləri Maliyyə Nazirliyi tərəfindən təsdiq edilmiş ilkin uçot sənədi hesab edilən ciddi hesabat blankları ilə rəsmiləşdirməlidirlər.

Vergi Məcəlləsinin 176-cı maddəsinə əsasən ƏDV-nin ödəyicisi ƏDV-nin ödəyiciləri olmayan alıcılara pərakəndə mal göndərilməsi və ya xidmət göstərilməsi halları istisna olmaqla, malları, işləri və ya xidmətləri qəbul edən şəxsə elektron vergi hesab-fakturasını mal göndərildəndən sonra 5 gündən gec olmayaraq verməyə borcludur. Malların (işlərin və ya xidmətlərin) alıcısı ödənilmiş ƏDV məbləğlərini Vergi Məcəlləsinin 175-ci maddəsinin müddəalarına uyğun olaraq hesablanan verginin ödənilməsi təsdiq edən ödəmə sənədi əsasında əvəzləşdirə bilər.

Xatırladırıq ki, nağd pul hesablaşmalarının aparılması qaydasının pozulması, xammalın, materialların, yarımfabrikatların, hazır məhsulların və digər sərvətlərin, habelə pul vəsaitinin 1000 manatdan çox olan məbləğdə uçotdan gizlədilməsi və ya uçota alınmaması Vergi Məcəlləsinin 58.7-ci və 58.8-ci maddələri ilə müəyyən edilmiş məsuliyyətə səbəb olur.

Fəaliyyətinizlə bağlı risklərin yaranmaması, hər hansı maliyyə itkilərinə məruz qalmamağınız üçün mövcud qanunvericiliyin tələblərinə əməl etməyiniz tövsiyə olunur.

Əlavə məlumat almaq üçün Vergilər Nazirliyinin Çağrı Mərkəzinə (195-1)və vergi ödəyicilərinə xidmət mərkəzlərinə müraciət edə bilərsiniz.

***Vergilər Nazirliyi***

# İstedadlı şair, tələbkar müəllim



Əmrah Şirvanlı1963-cü ildə Paşalı kəndində anadan olub.1984-cü ildə Gəncə Dövlət Universitetinin filologiya fakültəsini bitirmişdir. Hələ tələbəlik illərində -Azərbaycan Radiosunun "Ədəbi gənclik" verilişində "Qağayılar duya bilir, sevə bilir" adlı ilk şeri səslənmişdir. Sonralar "Azərbaycan təbiəti" jurnalında, "Yeni Şirvan", "Hacıqabul", "Yeganə yol" qəzetlərinin səhifələrində, Əhməd Cəfərzadənin "Udulu", Namiq Hacıheydərlinin "Muğanın səsi" toplularında silsilə şeirləri çap olunmuşdur.

1999-cu ildə isə Əmrah Şirvanlının "Vüsal həsrəti" adlı şeirlər kitabı nəşr olunmuşdur. "Alnıma yazılan yazılar" adlandırdığı şeirlər, poemalar, "Qüruba gedən qatar" adlı povest və hekayələr kitabı isə çap ərəfəsindədir.Şerlərində doğulub boya-başa çatdığı torpağın özünəməxsusluğunu, Vətən torpağının bütövlüyünü və bölünməzliyini poetik dildə vəsf edən Əmrah Şirvanlı 30 ildən çoxdur ki, Şorbaçı kənd orta məktəbində dil-ədəbiyyat müəllimi işləyir. 2005-ci ildən Azərbaycan Yazıçılar Birliyinin üzvüdür.

Əmrah Şirvanlının bir neçə şeirini qəzetimizin oxucularına təqdim edirik.

### Ey qəhrəman!..

***Azərbaycanın Milli Qəhrəmanı Mübariz İbrahimovun əziz xatirəsinə***

Ey qəhrəman, halal olsun deyirəm sənə,
Bu Vətənin duz-çörəyi, ananın südü,
Alqış olsun hünərinə, cəsarətinə,
Saf qanında çağlamışdır baba öyüdü.

Əcdadının ruhu gəzən müqəddəs torpaq,
Güvəndi səndəki sonsuz qeyrətə,
Başın üstə dalğalanan üçrəngli bayraq,
Çəkdi səni döyüşlərdə qalibiyyətə.

Sən qıranda yağıları hey dəstə-dəstə,
Torpaq olmuş şəhidlərin ruhu sevindi.
Su çiləndi anaların yanğısı üstə,
Fərəhindən ürəkləri bir dağa döndü.

Getdiyin yol bir müqəddəs haqq yolu idi,
"Uf" demədin sən bu yolda çandan keçərkən.
Babaların Babək, Nəbi, Cavanşir kimi,
Öz adını tarixlərə həkk elədin sən.

### Araz

Adını başdan kim qoydu,
Araz dedi, yoxsa ara?
Sən çay deyil göz yaşısan,
Ürəyində dərin yara.

Sinəm üstə şırıma bax,
Çətin qaysaq tuta bilə.
Həsrət olub sənin boyda
Çətin bu sel yata bilə.

Bu həsrətin kökü harda,
Bu həsrətin adı nədir?
Dünya boyda bir məmləkət,
Necə oldu didim-didim?

Araz aşığımdan olub,
Heyif ki, keçə bilmirəm.
Tariximi oxuduqca,
Necə dözüm, mən bilmirəm.

Araz, sənə mən "xan" dedim,
Üstündə arzum doğuldu.
Neçə kərə üsyan dedim,
Özüm qanımda boğuldum.

Haqqımı yedi yağılar,
Haqq dedim çəkdilər dara.
İki yanda Azərbaycan,
Olubdu gör neçə para.

Xiyabani, Pişəvəri,
Qaldırdı haqq bayrağını.
Qanıyla neçə fədai,
Yudu Vətən torpağını.

Döndü Araz, suyun qana,
Bu dərdə dözə bilmirəm.
Salam söylə Savalana,
Zəliləm gedə bilmirəm.

Araz mənim qan qardaşım,
Qoy seli aparsın məni.
Kol tək üstümdən axınca,
Çinar tək qoparsın məni.

# Məktəbəhazırlıq qruplarının rayonumuzda təşkili

***Təhsil hər bir xalqın milli intibahını təmin edən ən zəruri vasitədir. Ölkə rəhbərinin bu sahəyə xüsusi diqqət və qayğı göstərməsi, təhsilin inkişafına milli dövlət quruculuğu prosesinin zəruri əsası kimi yanaşması, xalqın intellektual səviyyəsinin artırılması, məktəbəqədər təhsil sahəsinə diqqət və qayğısı prioritet məsələ kimi aktuallaşmışdır.***

Məktəbəqədər təhsil uşaqların intellektual, fiziki və psixoloji inkişafında, potensial imkanlarının üzə çıxarılmasında mühüm rol oynayır. Həmçinin, uşaqların məktəbə hazırlanmasına, onlarda mədəni keyfiyyətlərin, müstəqillik, yaradıcılıq, təşəbbüskarlıq və həyati bacarıqların formalaşmasına ciddi təsir edir. Bu baxımdan, rayonumuzda, xüsusilə, kənd yerlərində məktəbəqədər müəssisələrin kifayət qədər olmaması uşaqların məktəbəqədər hazırlıq qruplarına cəlb olunmasına zərurət yaradır.

"Uşaqların məktəbəhazırlığının təşkili məsələləri haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 11 iyul tarixli və " Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 13 yanvar tarixli qərarı ilə təsdiq edilmiş " Ümumtəhsil məktəbinin Nümunəvi Nizamnaməsi"ndə dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 11 iyul tarixli 272 nömrəli qərarlarının icrasını təmin etmək məqsədilə rayonumuzun ümumtəhsil məktəblərində bir sıra işlər həyata keçirilmişdir.

Təhsil Nazirinin həmin qərarların icrasının təmin edilməsi barədə imzaladığı 5 avqust 2016-cı il tarixli 548 və 549 nömrəli əmrlərinə uyğun olaraq, 2016-2017-ci tədris ilindən Hacıqabul rayon ümumtəhsil məktəblərində 5 yaşlı uşaqlarla dövlət hesabına məktəbəhazırlıq təhsilə başlanılacaqdır. Məktəbəhazırlıq qruplarına sənəd qəbulunun avqustun 15-dən sentyabrın sonunadək aparılması nəzərdə tutulur. Ümumtəhsil məktəblərində məktəbəhazırlıq təhsilə cəlb olunacaq 5 yaşlı uşaqların adlı siyahısı hazırlanmış, ərazilər üzrə məktəbəhazırlıq təhsili təşkil ediləcək məktəblər və məşğələlərə təcrübəli, bacarıqlı, intellektual səviyyəli ibtidai sinif müəllimləri müəyyənləşdirilmişdir. Hazırlıq qruplarının əsas məqsədi uşaqları tədrisə hazırlıqlı başlaması, dərs prosesinə öncədən alışması, müəyyən bilikləri əldə etməsidir. Qeyd edirik ki, rayonun 23 ümumtəhsil məktəbində məktəbəhazırlıq qrupları təşkil olunacaqdır. Məktəbəhazırlıq qrupları təşkil olunacaq məktəblərdə sənədlərin qəbulu günləri və saatları, tələb olunan sənədlər, sənədləri qəbul edən şəxsin adı, soyadı və telefonu, açılacaq qrupların sayı, tədris dili, məşğələlərin başlanıb başa çatması, nümunəvi ərizə formasını əhatə edən məlumatlar məktəbin əsas giriş qapısında yerləşdirilmişdir. Həmçinin, məktəbəhazırlıq qrupları yaradılacaq ümumtəhsil məktəblərində lazımi təlim şəraitinin təmin olunması istiqamətində tədbirlər görülmüşdür.

Təhsil Nazirinin 5 avqust 2016-cı il tarixli 548və 549 nömrəli əmrlərinin məqsəd və mahiyyətini ümumtəhsil məktəblərinin pedaqoji kollektivinə çatdırılması ilə əlaqədar ümumtəhsil məktəblərində yığıncaqlar keçirilmiş, valideynlər arasında izahat işləri aparılmışdır.

Əziz valideynlər, övladınızın məktəbə hazırlıqlı getməsini və müəyyən bilikləri əldə etməsini arzu edirsinizsə rayonumuzun ümumtəhsil məktəblərində təşkil olunmuş məktəbəqədər hazırlıq qruplarına müraciət edin.

***Təranə Həmidova,***
***rayon Təhsil Şöbəsinin metodkabinetinin müdiri***

***Qaçay Bayramov***

### Qar çiçəyi

Bağçamızda bir çiçək var
Ağ ləçəkli, bir göyçəkdir.
Adı nədir mən bilmədim,
Yazında yox var qışında,
Görməmişdim həyatımda.

Bu çiçəyin adı nədir?
Soruşdum mən görənlərdən.
Bir ad dedi bilənlər də,
Onun adı qar çiçəkdir.
Özü də ağ tər çiçəkdir.

Açılmazdı ilk baharda,
Açar yanvar və fevralda.
Çiçək açır yağan qarda.
Qardan donlu ağ çiçəkdi.
Özü də ağ Qar çiçəkdi.

Qarlar yağır üstünə də,
Buz bağlayır kökündə də,
Çox incədi çiçəyi də,
Zərər çəkmir o göyçəkdi.
Onun adı Qar çiçəkdi.

Həm incədi, ətirlidi.
Gözəl-göyçək rayihədi.
Dərilməsə həftələrlə,
Soluxmayır təzə-tərdi,
Ağ ləçəkli Qar çiçəkdi.

Vətənimin Qar çiçəyi,
Sən də gizlən pis nəzərdən.
Azərbaycan Vətənində,
Sərkərdəyə verilmədir,
Şəxsiyyətə hədiyyədir.
Mənim incə, ağ ləçəkli,
Qar çiçəyim, qar çiçəyim.

## Allah rəhmət eləsin!

58 saylı Hacıqabul-Kürdəmir DSK-nın sədri Məhəmməd Hacıyev və kollektivi qocaman pedaqoq

**Fazil Tağıyevin**

vəfatından kədərləndiyini bildirir. mərhumun ailəsinə, yaxınlarına dərin hüznlə başsağlığı verir.


**HACIQABUL**

**Baş redaktor:**
Xuraman Feyruzqızı

**Həmtəsisçi:**
Qəzetin jurnalist kollektivi
Qəzet "Hacıqabul" qəzetinin kompyuter mərkəzində yığılmışdır, "Son dakika MMC" mətbəəsində çap olunmuşdur

Kapital Bank Hacıqabul filialı
İndeks: 66975
Lisenziya: № 022579
Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.

**Ünvan:** Hacıqabul şəhəri, İ.Qayıbov küçəsi 4.
**Tel:** 4-32-00,
**Tiraj:** 1200